# *MƏKTƏBƏQƏDƏR TƏHSİL VƏ TƏRBİYƏ*
# *ДОШКОЛЬНОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ*
# *PRE-SCHOOL EDUCATION AND UPBRINGING*

*UOT 372.3/.4*

***Firudin Bahadur oğlu Rzayev***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Cəlilabad filialının müəllimi*
*https://orcid.org/0009-0002-1812-7432*
*https://doi.org/10.69682/azrt.2024.91(3).57-63*

## MƏKTƏBƏQƏDƏR TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM-TƏRBİYƏYƏ DÖVLƏTİN QAYĞISI

***Фирудин Бахадур оглы Рзаев***
*преподаватель Джалилабадского филиала Азербайджанского Государственного Педагогического Университета*

## ГОСУДАРСТВЕННАЯ ЗАБОТА О ВОСПИТАНИИ И ОБУЧЕНИИ В ДОШКОЛЬНЫХ ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Firudin Bahadur Rzayev***
*lecturer at the Jalilabad branch of the Azerbaijan State Pedagogical University*

## STATE CARE FOR EDUCATION AND UPBRINGING IN PRESCHOOL EDUCATIONAL INSTITUTIONS

**Xülasə.** Məqalədə uşaq bağçalarının inkişafına dövlət qayğısı, tərbiyəçi müəllimlərə edilən metodiki köməklik, uşaq bağçalarının qısa tarixi əsas yer tutur. Eyni zamanda təhsil islahatında fəal təlim metodlarının məktəbəqədər təhsil müəssisələrində tətbiqinə aid fikirlər və dərs nümunələri göstərilmişdir. Uşaq bağçalarında yaşa görə hər bir qrupun vəzifələri haqqında da məlumat verilmişdir. Təhsilin ilk pilləsində uşaqların tədqiqatçı kimi yetişdirilməsini əks etdirən mövzular qoyulmuşdur.
***Açar sözlər:*** *Məktəbəqədər, təhsil, müəssisə, uşaq, bağça, kurikulum, əmək, oyun, qrup, yaş, proqram, məzmun, idrak, tərbiyə, aktuallaşdırma, motivasiya, dərketmə*

**Резюме.** В статье основное место занимают государственная забота о развитии детских садов, методическая помощь воспитателям, краткая история детских садов. Автором предоставлены идеи и образцы занятий, связанных с применением активных методов обучения в дошкольных образовательных учреждениях, а также дана информация об обязанностях каждой возрастной группы в детских садах. На первом уровне образования установлены темы, отражающие воспитание детей как исследователей.
***Ключевые слова:*** *дошкольное учреждение, образование, учреждение, ребенок, детский сад, курикулум, труд, игра, группа, возраст, программа, содержание, познание, воспитание, актуализация, мотивация, понимание*

**Summary.** The article focuses on government concern for the development of kindergartens, methodological assistance to educators, and a brief history of kindergartens. The author provides ideas and samples of activities related to the use of active learning methods in preschool educational institutions, and also provides information about the responsibilities of each age group in kindergartens. At the first level of education, themes are established that reflect the education of children as researchers.
***Keywords:*** *Preschool institution, education, institution, child, kindergarten, curriculum, labor, game, group, age, program, content, cognition, upbringing, actualization, motivation, understanding*

Müasir cəmiyyətin inkişafında əsas rol oynayan şəxsiyyətlərin çoxu uşaq bağçasında yetişmişdir. Yetişməkdə olan nəslin təbii imkanlarını, onları cəmiyyətdə səmərəli fəaliyyətə hazırlanmasında tərbiyəçilərin rolu böyükdür. Müstəqillik qazanmış respublikamızda müstəqil düşünən vətəndaşların yetişdirilməsi, vətəninə məhəbbət, dövlətinə sadiqliyin bünövrəsi məktəbəqədər təhsil müəssisələrində qoyulur. Burada ümumi mədəniyyətə malik milli mənəviyyatlı şəxsiyyətlərin yetişdirilməsinin bünövrəsi qoyulur. Məktəbəqədər təhsil müəssisələrin-də qarşıya qoyulan əsas vəzifə Azərbaycanın inkişafı naminə fədakarcasına çalışacaq vətəndaşların yetişdirilməsidir.

Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişafı uzun tarixi yol keçmişdir. Bu tarixi yolun bünövrəsi 1907-ci ildə Bakının Bayıl qəsəbəsində yaradılmış və "Dəcəl uşaqlar" adlanaraq, fəaliyyət göstərmişdir. Neft sənayesi şəhəri olan Bakıda milyonerlər və ziyalılar bu xeyirxah işin genişlənməsi qayğısına qalmışlar. 1916-cı ildə Bakıda "Qadın gimnaziyası" yanında uşaq bağçası açılmışdır. Nəriman Nərimanov uşaq bağça-sının təchizatına yaxından köməklik etmişdir. 1920-ci ilin ortalarına kimi Bakıda 35, Gəncə qəzasında 8, Nuxa (Şəki) qəzasında 6, Qubada 1, Qazaxda və Göyçayda 3, Lənkəranda 2 və Şamaxıda 1 uşaq bağçası fəaliyyət göstərmişdir.

1920/21-ci illərdə "Məktəbəqədər yaşlı uşaqlar üçün nağıllar məcmuəsi", "Tərbiyə prinsipləri", "Uşaq bağçalarının necə təşkil edilməsi və onun işinin aparılması qaydaları kitabları nəşr edilərək tərbiyəçilərin istifadəsinə verilmişdir. 1926-cı ildə Azərbaycanda ilk Məktəbəqədər Tərbiyə Pedaqoji İnstitutunun açılması haqqında dekret verilmişdir. İnstituta 30 nəfər qadın qəbul edilmişdir. Tərbiyəçilərin təhsilinə Dövlət qayğısı daima artmış, onların pedaqoji fəaliyyəti üçün daima geniş şərait yaradılmışdır.

Akademik M.M. Mehdizadənin təklifi ilə Elmi-Tədqiqat Pedaqoji İnstitutunda (indiki Təhsil İnstitutu) "İbtidai təlim şöbəsi" yaradılmışdır. Dövlətin yaxın qayğısı nəticəsində məktəbəqədər təhsil müəssisələrinin maddi -texniki bazası ildən-ilə inkişaf etmişdir. Bu tərbiyə müəssisələrinin proqramı mühüm dövlət sənədi olub, uşaq bağçalarında tərbiyə işinin məzmununu, məqsədini və vəzifələrini özündə əks etdirmişdir. Qəbul olunmuş proqramda yaş fərqi nəzərə alınmaqla uşaqların hərtərəfli inkişafına ciddi nəzarət edilmişdir. Uşaq bağçalarında uşaqların fəaliyyətinin, fiziki, əxlaqi və estetik tərbiyəsi həmişə ön planda olmuşdur. Sovetlər birliyi dövründə respublikamızın hər bir kəndində uşaq bağçaları fəaliyyət göstərmişdir. Burada fəaliyyət göstərən tərbiyəçilər orta təhsilli olublar. Azərbaycanda insanların təhsilinə qayğı çox zəif idi. 1969-cu ilə kimi 124 kəndi olan Cəlilabadda cəmi 6 orta məktəb fəaliyyət göstərmişdir. 1969-cu ildə Azərbaycan KP-nin birinci katibi seçilən Heydər Əliyev ilk növbədə təhsilin inkişafına ciddi fikir vermişdi. Orta və natamam orta məktəblərin sayı artırılmışdı. Ali təhsil ocaqlarında savadlı tələbələrin qəbuluna xüsusi nəzarət edilmişdi. Yaşlı nəslin savadlanması üçün axşam-qiyabi məktəbləri açılmışdı. Eyni zamanda ali məktəblərdə də axşam və qiyabi təhsilə şərait yaradılmışdı.

Sovet imperiyası dağılandan sonra ölkəmizdə yaranan özbaşınalıqlar məktəbəqədər təhsil müəssisələrinin də fəaliyyətinə zərbə vurdu. Hər bir yaşayış məntəqələrində fəaliyyət göstərən uşaq bağçaları maddi çətinlikdən öz işini dayandırmışdı. Müəyyən müddət məktəbəqədər təhsil ocaqlarında ixtisaslı kadrların olmaması, planlı iqtisadiyyatından bazar iqtisadiyyatına keçid də bu sahəyə ciddi zərbə vurdu. Bu təhsil müəssisələrində təlim-tərbiyə işindəki çatışmazlıqlar ibtidai təhsilin ilk pilləsi olan birinci sinfinə də öz təsirini göstərmişdi. Peşəkar kadrların olmaması, metodiki vəsaitlərin hazırkı dövrlə ayaqlaşmaması bu sahədə islahatların aparılmasının vacib olmasını tələb etmişdir.

Heydər Əliyevin Azərbaycana ikinci dəfə qayıdışı ölkəmizin bütün sahələrində olduğu kimi təhsil sahəsində də inkişafa səbəb olmuşdur. XX əsrin sonu təhsilimizin intibah dövrü kimi tariximizə yazıldı. Təhsilimizin ağır günündə müdrik insanın, dünya şöhrətli siyasətçi, Heydər Əliyevin "Təhsil islahatı" haqqındakı fərmanı təhsilə göstərilən qayğının bariz nümunəsi olmuşdur.

Azərbaycan Respublikasında aparılan təhsil islahatlarında məktəbəqədər təhsil fasiləsiz təhsil sisteminin ilk pilləsi hesab edilmişdir. Uşaqların əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafı, sadə əmək vərdişlərinə yiyələnməsi, şəxsiyyət kimi formalaşdırılmasının bünövrəsi məktəbəqədər təhsil müəssi-

sələrində qoyulmuşdur. İbtidai pillənin birinci sinfinə uşaq bağçasından gələnlərlə ailədən gələnlər arasında müəyyən fərqlər meydana gəlmişdir. Bu problemi həll etmək üçün məktəblərdə hazırlıq qrupları fəaliyyət göstərməkdədir. Uşaq bağçalarında onların bilik və bacarıqlarının vərdişə çevrilməsinin əsası qoyulmuşdur. Bu dövrün əsas xüsusiyyətləri ondan ibarətdir ki, uşağın nitqi, riyazi və məntiqi təfəkkürünün inkişafı, ətraf aləmlə tanışlıq, təsviri fəaliyyəti, musiqi və fiziki inkişafı üzrə ilkin bilik və bacarıqları formalaşmışdır.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlar hal-hazırda milli-mənəvi və bəşəri dəyərlər ruhunda tərbiyə edilir. Uşağın məktəbdəki uğurlu təhsili, şəxsiyyət kimi formalaşması, ictimai həyatda iştirak etməsi məktəbəqədər dövrdə qoyulmuş təhsildən əhəmiyyətli dərəcədə asılıdır.

"Azərbaycan Respublikasında məktəbəqədər təhsilin yeniləşdirilməsi Proqramının (2007-2010-cu illər)" təsdiq edilməsi haqqında Dövlət sənədi qəbul edilmiş və Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 aprel tarixli 2089 nömrəli sərəncamı ilə təsdiq edilmişdir. Bu sənəd məktəbəqədər təhsil sisteminə göstərilən qayğının əsasını təşkil etməklə bərabər kadr hazırlığını genişləndirmişdir. Hal-hazırda bütün uşaq bağçalarında tərbiyəçilər ali və ya orta ixtisas təhsilli kadrlardır. Bu dövlət proqramının əsas məqsədi, əhalinin bütün təbəqələrinin məktəbəqədər təhsil sisteminin imkanlarından istifadə etməsidir.

Məktəbəqədər təhsil müəssisələrində vahid idarə etmə qaydaları haqqında yeni, vahid nizamnamə olması barədə 14 aprel 2017-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının (94-cü maddəyə uyğun) qanununu təsdiqlədi.

Azərbaycan Respublikası Prezidentinin bu sahəyə göstərdiyi qayğının əməli nəticə-sidir ki, uşaq bağçalarında vətənpərvərlik ruhunda yetişən igid balalarımız vətən torpağını yağı düşməndən təmizlədilər. Bu sahəyə edilən qayğı daima davam edir. 2021-ci ilin 20 dekabrında "Məktəbəqədər təhsil təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi haqqında" sərəncam imzalandı. Bu sərəncamda, konstitusiyanın 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, məktəbəqədər təhsil sistemində idarəetmənin təkmilləşdirilməsi və təhsilin keyfiyyətinin yüksəldilməsinin göstəricisidir.

Məktəbəqədər təhsil müəssisələrində təhsilin məzmunu, müxtəlif fəaliyyət növləri üzrə uşaqların inkişafı, təlim strategiyaları, inkişafetdirici mühitin təşkili, təlimin təşkilinə verilən tələblər, forma və üsullar təlimin planlaşdırılması və təşkili metodikasına aid vəsait "Məktəbəqədər Təhsil Proqramı (kurikulum) 2022-ci il tarixindən tərbiyəçilərin ixtiyarına verilmişdir.

Məktəbəqədər təhsil müəssisələrində uşaqların hərtərəfli inkişafı diqqət mərkəzində olmuş, hal-hazırda da olmaqdadır. Məktəbəqədər təhsil müəssisələrində uşaqların inkişafı dörd sahə üzrə müəyyənləşir: 1.Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik; 2. Uşaqların idrakının inkişafı; 3. Uşaqların estetik və yaradıcı inkişaf; 4. Sosial emosional inkişaf.

**Fiziki inkişaf, sağlamlıq və təhlükəsizlik** dedikdə, uşaqların bədən quruluşunun formalaşmasına, orqanizmin möhkəmlənməsinə, daxili orqanların fəaliyyətinin yaxşılaşmasına imkan yaradır. Uşaq bağçasında uşaqların hava, günəşdən, sudan geniş və düz-gün istifadə etməsi, qidalanması, yuxu, asudə vaxt və təlim prosesinin düzgün qurulması tərbiyəçinin əsas vəzifəsi hesab edilir. Təhlükə və çətinliklərə hazırlıq, yol hərəkəti qaydaları, yanğın təhlükəsi zamanı davranma qaydaları, küçədə, olduğu kollektivdə özünu necə aparma vərdişləri məhz uşaq bağçasında formalaşır.

Uşaqların fiziki inkişafında mühüm əhəmiyyəti olan əmək tərbiyəsinin bünövrəsi bağçada qoyulur və sadədən mürəkkəbə doğru prinsipi əsasında inkişaf etdirilir. Uşaqlar sadə əmək alətləri ilə tanış olur və bu alətlərin vəzifələrinin nədən ibarət olduğunu öyrənirlər. Çox təəssüflər olsun ki, əmək təlimi uşaq bağçasında müstəqil fənn kimi deyil, təsviri incəsənətin daxilində tədris olunur.

**Uşaqların idrakının** əsası məhz bağçadan başlayır. Sensor inkişafı uşaqların, yəni ətraf aləmi hissiyyat orqanları vasitəsilə qavraması deməkdir. Görmə, eşitmə, iy bilmə, toxunma hissi – bunlar uşaq üçün ətraf aləmin öyrənilməsinin bünövrəsi kimi başa düşülməlidir. Onların idrak qabiliyyətlərinin, yəni müqayisə etməyi, fərqləndirməyi, ümumiləşdirməyi bacarmaq vərdişlərinin inkişaf etdirilməsində ayrı-ayrı fənlərin rolu böyükdür. Belə fənlərdən biri də

əmək təlimidir. Əmək prosesində uşaqlar, hazırlayacaqları məmulat haqqında düşündüyünü ortaya çıxartmağı bacarmalıdır. İdrak üzrə uşağın yerinə yetirdiyi tapşırıqları məntiqi mühakimə yürütmək bacarıqlarını, zaman və məkan haqqında təsəvvürlərini genişləndirilməsi çox önəmlidir. Uşaqlar əmək dərslərində hazırlayacaq məmulatların hansı ardıcıllıqla olacağını bilməsi vacibdir. Məsələn, uşaqlar qar adam hazırlayanda ardıcıllıq olaraq, əvvəl bədən hissəsi, qolları, başı, gözləri, əlində ağacı, başında papağı hazırlayırlar. Uşaqlar valideynlərinin onlar üçün qar adamı hazırlanmasının şahidi olublar. Ona görə də işlərin icrası zamanı tərbiyəçi onlardan, atan qar adamını sizin üçün hazılayanda bunu necə edirdi sualına uşaqlardan düzgün cavab almağa çalışmalıdır . Uşaqlar valideynlərindən öyrəndiklərini öz bildikləri kimi izah edəcək. Tərbiyəçi də onların fikirlərini bir qədər formalaşdıraraq, tədqiqatçılığa yönəldəcək. Sonda uşaqlardan plastilindən hazıladıqları işin necə hazıladıqlarını soruşmalıdır. Kiçik qruplarda kollektiv iş bir qədər çətinlik yaradır. Tərbiyəçi əməkdaşlıq edənlərin qiymətlərinin digərlərindən fərqləndirəcəyini elan edir.

**Uşaqlarda estetik və yaradıcılıq** qabiliyyətlərinin inkişafında tərbiyəçinin əməyi böyükdür. Estetik tərbiyə məktəbəqədər yaşlı uşağın bədii hisslərinin və zövqünün, bədii yaradıcılıq qabiliyyətlərinin inkişafını təmin edir. Təsviri fəaliyyətdə rəngləri tanıması və onlardan çəkdikləri şəkillərdə istifadəsini təmin etmək tərbiyəçidən çox asılıdır. Uşaqlarda modellərin quraşdırılması, applikasiya işlərinin icrası, yaşlarına uyğun hazırlayacağı oyuncaqların materiallarının seçilməsinə yardım etmək və hər bir materialın növünə uyğun emal vasitələrinin (alətlərin, məs. Qayçı, bıçaq, yapışqan, sumbata, kist, lobzik və s.) seçməyi öyrənməsində tərbiyəçi mühüm rol oynayır. Estetik tərbiyə, həmçinin təbiətdə, ətraf mühitdə, insanın hərəkətlərində, geyimində gözəlliyi görmək bacarığı və yaradıcı qabiliyyətlərin formalaşmasına imkan yaradır.

**Uşaqlarda sosial-emosional inkişaf**. Bu xüsusiyyət uşağın yaşadığı sosial mühitin normaları əsasında tənzimlənir. Sosial-emosional inkişaf vasitəsilə uşaqlarda insanlara qarşı müsbət münasibət, xeyirxahlıq, qayğıkeşlik, qarşılıqlı yardım, başqasının dərdinə şərik olmaq və s. kimi mənəvi keyfiyyətlər formalaşır. Uşaqlarda kollektiv əmək vərdişlərin aşılanması, bir-biri ilə əməkdaşlıq etməsi, yoldaşlarının fikrinə hörmətlə yanaş-maq, böyüklərə hörmət etməyi öyrətmək lazımdır. Tərbiyəçinin dostluq və yoldaşlıq hisslərinin aşılanmasında bir əsgərin yaralı yoldaşını çiynində aparması fraqmenti kollektiv tərbiyənin bariz nümunəsidir

**Məktəbəqədər təhsil proqramında,** uşaqların inkişafı üçün müxtəlif yaş dövrləri müəyyənləşdirilmişdir:

* Erkən yaş dövrü (1-3 yaş)-ətraf aləmi dərk etmək, oyuncaqlarla oynamaq, yoldaşları ilə ünsiyyətdə olmaq, tərbiyəçinin rəhbərliyi altında birgə fəaliyyət göstərmək, özünə-xidmət əməyində vəzifəsini bilmək, məişət əşyalarını tanımaqla funksiyasını bilmək və s.

*Məktəbəqədər təhsil dövründə (3-6 yaş)--*oyunlar; *ünsiyyət; *tədqiqatçılıq; *bədii fəaliyyət; *əmək fəaliyyəti; *təsviri fəaliyyət; musiqi; hərəki fəallıq. Hər bir yaş dövründə uşaqların fəaliyyəti kurikulum (2022-ci il) proqramında aydın göstərilərək tərbiyəçilərin ixtiyarına verilmişdir.

Məktəbəqədər təhsil müəssisələrində əmək təliminin tədrisi zamanı oyunlardan istifadə edilməsi öz müsbət bəhrəsini həmişə vermişdir. Böyük rus yazıçısı Maksim Qorki demişdir: "Oyun uşaqların yaşadıqları və dəyişməli olduqları aləmi dərketmə yoludur"

Unutmaq olmaz ki, böyüklər üçün gündəlik işlərdə iştirak etmək nə qədər önəmlidir-sə, uşaqlar üçün də oyunlar o qədər vacibdir. Uşaq dünyaya gəldiyi gündən yetkinlik yaşına kimi daima böyüklərin himayəsinə möhtac olurlar. Onların əqli və fiziki cəhətdən formalaşması üçün təbii imkanları nəzərə alınmalıdır. Aparılan müşahidələr göstərir ki, oyunlarda fəal iştirak edən uşağın qidalanmaya ehtiyacı daha aktiv olur. Oyun və əmək fəaliyyətlərin əsasında hərəkət başlıca amildir. Valideynlərin də didaktik oyunların mahiyyətini və əhəmiyyətini bilməsi vacibdir. Çünki uşaq bağçasında tərbiyə alan uşaqlar kiçik faiz təşkil edir. Əvvəllər birinci sinfə qəbulda uşaq bağçasından gələnlərlə, ailədən gələnləri eyni sinfə qəbul etmirdilər. Səbəb onların hazırlıq səviyyələrinin eyni olmaması idi.

**Məktəbə hazırlıq** işində müəllim, uşaqların şəxsi keyfiyyətlərini aşkara çıxarmağı və onların potensial imkanlarını inkişaf etdirməlidir. Müəllim uşaqların fiziki və əqli qabiliyyətinin

inkişafı, şəxsiyyətyönlü hazırlığı, təşəbbüskarlığı, özünü qiymətləndirmə bacarıqlarının formalaşdırılmasında əsas simadır.

**Məktəbə hazırlıq** qruplarında 7 fənn tədris edilir: 1.Ətraf aləmlə tanışlıq; 2.Savad təliminə hazırlıq və nitqin inkişafı; 3. Bədii təfəkkürün inkişafı; 4. Məntiqi və riyazi təfəkkürün inkişafı; 5. Təsviri fəaliyyət; 6. Musiqi ; 7. Fiziki mədəniyyət.

Məktəbə hazırlıq qruplarında bir məşğələnin müddəti 30 dəqiqə, fasilə 10 dəqiqə. Uşaqların yorulmasının qarşısını almaq üçün musiqi və idman hərəkətləri etdirmək lazımdır.

Uşaqların fəaliyyəti dedikdə -əşyəvi-manipulyativ fəaliyyət, ünsiyyət, oyun və əmək fəaliyyəti başa düşülür. 1-2 yaş qruplarında 4 fənn, 2-3 yaşlılarda 5 fənn, 3-4 yaşlılarda 6 fənn, 4-5 yaşlılar üçün 6 fənn və məktəbəhazırlıq qruplarında 7 fənn tədris olunur. Digər yaş qruplarına nisbətən burada **"savad təliminə hazırlıq və nitqin inkişafı"** fənni əlavə tədris olunur. Xüsusilə bir problemi qeyd etmək istəyirəm ki, təsviri fəaliyyətin tərkibində əmək təlimi öyrədilir. Bu fəaliyyətdə uşaqlar, rəsm, yapma, quraşdırma, kəsib-yapışdırma işləri yerinə yetirilir. Rəsm işləri təsviri fəaliyyətə aiddir. Maraqlı məqam odur ki, çox işlər əmək təliminə aid olduğuna baxmayaraq, təsviri fəaliyyətin kölgəsinə düşüb. **Yapma, quraşdırma və kəsib-yapışdırma işləri əmək təliminə aiddir**. Məlumdur ki, ali məktəblərdə gələcəyin tərbiyəçiləri olan tələbələr 30 saat mühazirə və 30 saat seminar keçirlər. Mən hər bir mühazirəyə bir dərsin tədrisin nümunə salaraq, tədris metodikası ilə tanış edirəm. Pedaqoji təcrübədə olan tələbələr əmək təlimini təsviri fəaliyyətin tərkibində tədris edirlər. Mən təklif edirəm ki, hər yaş qrupuna əmək fəaliyyəti əlavə olunsun. Belə olanda uşaqlar əmək alətləri və alətlərin vəzifələri haqqında geniş məlumatlar əldə edəcəklər.

Məktəbəqədər təhsil proqramının (kurikulumun) məzmunu standartlar şəklində ifadə olunmuşdur. Dövlət tələbinə görə, məzmun standartları uşaqların bilik və bacarıqları təlim nəticələrinin reallaşdırmasına xidmət etməlidir. Məzmun standartları bütün yaş qrupları üçün eynidir. Lakin alt standartlar hər yaş qrupuna görə dəyişəndir. Burada məzmun uşağın nə öyrənəcəyini, yəni bilik hissəsi nəzərdə tutulmuşdur. Fəaliyyət isə öyrəndiyini necə nümayiş edəcəyini bildirir. Təlimdə **nəticəyönlülük,** təhsil proqramının hazırlanmasında mühüm didaktik prinsiplərdən biridir. Təlim nəticələri dərsin sonunda dəyərləndirmə ilə başa çatdırılmalıdır.

Uşaq bağçalarında yüksək təlim nəticələri əldə edilməsində planlaşdırmanın rolu böyükdür. Planlaşdırmanın əsasən iki növü vardır: 1. Perspektiv (illik) və həftəli(cari). Perspektiv planlaşdırma əsasında məşğələlər aşağıdakı ardıcıllıqla olmalıdır: *mövzu; *standartlar;* məqsəd;* inteqrasiya;*iş forması;*iş üsullar; *resurslar.

Məşğələ üç mərhələ ilə tədris edilir: 1. Aktuallaşdırma (motivasiya; 2. Dərketmə; 3.Düşünmə.

Bir dərsin nümunəsinə baxaq:

**Mövzu:** "Ev heyvanları"

**Standart:** 2.3.3. Canlı və cansız aləmin obyektlərini (insan, heyvan, quş, bitki, qum, daş, torpaq və s.) əlamətinə görə fərqləndirir.

**Təlim nəticələri:** *Ev heyvanlarını adlandırır; * Ev heyvanlarını əlamətlərinə görə fərqləndirir; *Ev heyvanlarının faydasını öyrəndiyini nümayiş etdirir; *Fikrini bütöv cümlələrlə rabitəli söyləyir.

**İnteqrasiya:** *İdrak fəaliyyəti 2.1.5. Əlamət, keyfiyyət, hiss bildirən sözlərdən istifadə edir. * Sosial-emosional inkişaf. 4.2.2. Qrupun üzvü kimi fəaliyyət göstərməyə təşəbbüs edir.

**İş üsulu:** Əqli hücum, müzakirə, suallar.

**İş forması:** Kollektiv, fərdi və qruplarla iş.

**Resurslar:** Ev heyvanlarının şəkilləri, proyektor, video-fraqment.

**Məşğələnin gedişi**

**I. Mərhələ: Aktuallaşdırma (motivasiya).** Uşaqların diqqətini mövzuya yönəltmək üçün müxtəlif təkliflər vermək, onların diqqətini mövzuya cəlb etmək olar. Nümunə üçün üç formada motivasiyanı təklif edirəm:

*Birinci təklif. Tərbiyəçi müxtəlif heyvanların şəkillərini göstərərək, adlarını soruşur. Məs. Ayı, aslan, tülkü, çaqqal, canavar, qoyun, inək, qaz, ördək, toyuq, keçi, it, pişik xoruz və s. Adları təqribən aldıqdan sonra tərbiyəçi sual verir, bunlardan hansıları ev və çöl heyvanlarıdır?

*İkinci təklif: Səsinə görə heyvanların adlarını uşaqlardan soruşmalı. Sonra onlardan hansılarının ev heyvanları olduğunu soruşmalı.

Üçüncü təklif. * Tapmaca deməklə motivasiya etmək olar: *Saqqalı uzun sallanar, dağa, daşa dırmanar (keçi); *Altı bulaq-içərlər, üstü

zəmi biçərlər (qoyun); *Evimizdə bir kişi var, xor-xor yatışı var (pişik); * O hansı heyvandır ki, yarışlarda qalibdir. Keçmişdə döyüşçünün köməyidir? (at); *O nədir ki, evə girməz, sədaqəti eldə gəzər (it)?

Tərbiyəçi üç təklifdən birindən istifadə etdikdən sonra uşaqlardan soruşur, bu heyvanlar harada yaşayır? Uşaqların ətraf aləm haqqında anlayışı olsa, cavab verəcəklər. Tərbiyəçi çalışmalıdır ki, cavabları uşaqlardan alsın. Ev heyvanlarıdır? – cavabından sonra yeni məşğələnin adını elan edir. Bu gün siz ev heyvanları haqqında məlumatları öyrənəcəksiniz.

**II. Mərhələ: Dərketmə.** Tərbiyəçi müasir təlim texnologiyasından (İKT-dən) istifadə etsin. Ekranda qoyun, inək, keçi, at, pişik, it, toyuq, qaz, xoruz və s. şəkillər uşaqların diqqət mərkəzində olsun. Aşağıdakı sualları verməli:

* Nə üçün bu heyvanlar ev heyvanları adlandırılır?

* İnsanlar ev heyvanlarını nə üçün saxlayırlar?

*Bu heyvanlar nə ilə qidalanırlar?

*İnəyin, qoyunun və keçinin insanlara hansı xeyirləri var? (cavablarında süd, ət, yun)

* Qoyunun yunundan hansı məqsədlərlə istifadə olunur?

*Nə üçün yun parçadan hazırlanmış paltardan soyuqda istifadə edirsiniz?

*Yundan hazırlanan yorğan və döşək digərlərində nə ilə fərqlənir?

*Eyni zamanda itin, atın, pişiyin, ulağın (eşşək) insan həyatındakı xidmətlərini də soruşmalı. Heyvanlara məhəbbət və hörməti aşılamaq tərbiyəçinin əsas vəzifələrindən biridir. Uşaqların düşünmə mərhələsindən əvvəl həzin musiqi, yüngül idman hərəkətləri ilə zehni yorğunluğu aradan qaldırmaq lazımdır.

**III. Mərhələ: Düşünmə.** Tərbiyəçi qabaqcadan elan edir ki, kim doğru cavab versə birinci yerin qalibi kimi "Dövlət bayrağı" ilə mükafatlandırılacaq. Uşaqları dörd qrupa ayırmalı, onlardan özlərinə lider seçmələrini tapşırmaq lazımdır. Hər bir qrupa aşağıdakı tapşırıqları verməli:

**I qrup:** Uşaqlara inək, pişik, qoyun, keçi, it, eşşək təsvirləri paylayaraq, soruşmalı, bu heyvanlardan hansılarının südündən insanlar faydalanır? Hər şəkilin sonunda kiçik kvadratlarda cavabları işarələməyi tapşırmalı.

**II qrup:** Uşaqlara inək, pişik, qoyun, keçi, it, eşşək təsvirləri paylayaraq, bu heyvanlar-dan hansının əti yeməlidir? Cavabları kvadratda qeyd etməyi tapşırmalı.

**III qrup:** Uşaqlara inək, pişik, qoyun, keçi, it, eşşək təsvirləri paylayaraq, soruşmalı, bu heyvanlardan hansıları ət ilə qidalanır?

**IV qrup:** Uşaqlara inək, pişik, qoyun, keçi, it, eşşək təsvirləri paylayaraq, soruşmalı, bu heyvanlardan hansıları ot ilə qidalanır?

Qruplara verilən vaxt tamam olduqdan sonra, tərbiyəçi cavabları yoxlayaraq, uşaqların müzakirəsinə verməsi ilə yanlış cavablara düzəliş etməklə dərsi yekunlaşdırır. Beləliklə uşaqların bir-birinin səhvlərini görmək və səhvlərin düzəldilməsinə şərait yaradılır

Uşaqların mövzunu şüurlu dərk etməsini maraqlı bir oyunla başa çatdırmalı. Hər qrupdan bir oğlan və bir qız qabağa dəvət edərək, stolun üstündəki maskaları başlarına taxmağı tapşırır və digər tərəfdə ət və ot qoyulan stolu göstərərək hər kəs maskasına görə qidanı seçsin. Uşaqlar canlı olaraq təlim nəticəsini əyani şəkildə əldə etdiyinə görə tərbiyəçi tərəfindən dəyərləndirilir. Dəyərləndirmədə qiymət əvəzinə ulduz, bayraq və ya alqışlarla həvəsləndirilir.

Evə tapşırıq. Ev heyvanlarında birini plastilindən hazırlayın.

Məktəbəqədər təhsil müəssisələrində imkanı olmayanlar üçün bu çətinliyi aradan qaldırmaq məqsədi ilə ümumtəhsil məktəblərində Azərbaycan Respublikasının Nazirlər kabinetinin (8 yanvar, 2010-cu il 4 nömrəli qərarı) **"Məktəbə hazırlığın təşkili Qaydaları"** təsdiq olunmuşdur. Bu sənəddə kiçik yaşlı uşaqların intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsi, istedadının, qabiliyyətinin dəyərləndirilməsində müəllimin xidməti qeyd olunmuşdur. Uşaqların sağlamlığının qorunması, sanitariya gigiyena qaydalarına əməl edilməsi və estetik tərbiyəsi təmin edilmişdir. Uşaq yaradıcılığı və onların tədqiqatçı olmasına müəllim şərait yaratmalıdır. Bir dərsin tədrisinə baxaq:

Təsviri fəaliyyətdə uşaqların peşələr haqqındakı məlumatının nə dərəcədə uşaqların mənimsənilməsini mövzunun köməyi ilə uşaqlara çatdırmaq lazımdır.

**Mövzu: Həkim və aşpaz papağının düzəldilməsi.**

**Standart:** 3.1.3.; 3.1.4.

**İnteqrasiya:** 1.1.4.; 2.2.6.; 4.2.3.

**Məqsəd:** • Kəsmə üsulu ilə yaradıcılıq bacarıqları nümayiş etdirir. • Sadə yapma bacarıqları nümayiş etdirir.

**İş üsulları**: Əqli hücum, suallar, müzakirə.

**İş forması:** Kollektiv və fərdi.

**Resurslar:** Şəkillər, kağızlar, plastilin, rəngli karandaşlar, qayçı, yapışqan, rəngli kağız, fırça və s.)

**I. Mərhələ. Motivasiya. M:** – Uşaqlar, siz tezliklə böyüyəcəksiniz. Məktəbi bitirəndən, sonra instituta qəbul olacaqsınız. Sonra isə işləyəcəyiniz sahə üzrə peşə seçəcəksiniz. Bildiyiniz peşələri sadalayın. *(müəllim, həkim, aşpaz, mühəndis, yanğınsöndürən, bərbər) (Uşaqların fikirləri dinlənilir)*

**II. Mərhələ. Dərketmə. M:** "Bəli, uşaqlar. Bunlardan başqa da peşələr var. Bütün peşələr vacibdir. Mən sizə bir şeir söyləyəcəyəm:

*Aşpaz olmaq istəsən,*
*Bu sənəti sevməlisən.*
*Dadlı yeməklər bişirib,*
*Süfrələrə verməlisən!*

Şeir hansı peşə haqqındadır? (Aşpaz) Aşpazlar necə papaq qoyurlar? Biz indi sizinlə nümunəyə əsasən aşpaz papağı düzəldəcəyik. Bunun üçün kağızlardan, qayçıdan və yapışqandan istifadə edəcəyik". *(Əvvəlcə müəllim nümunəni göstərir, uşaqların gözü qarşısında izah edə-edə işi yerinə yetirir. Sonra uşaqlara işə başlamağı təklif edir.)*

—İdman dəqiqəsi—

**III. Mərhələ. Tətbiqetmə. M:** –"Uşaqlar, siz digər hərflər kimi **Q** hərfini də yazmağı və oxumağı öyrənmisiniz. İndi isə plastilindən "PAPAQ" sözünü düzəldin". Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**Müəllim daha bir peşə haqqında:** – Uşaqlar, qulaq asın, sizə bir şeir söyləyəcəyəm:

*Bəlkə olum bir həkim,*
*Xəstələnərsə hər kim,*
*Ona dərman yazaram,*
*Tez onu sağaldaram!*

Uşaqlar, bəs həkimlər başlarına necə papaq qoyurlar? *(Uşaqların cavabları)*

**Dərketmə. M:** "İndi isə kağızdan həkim papağı düzəldəcəyik". *(Müəllim əvvəlcədən hazırladığı nümunəni göstərir, sonra onların gözü qarşısında izah edə-edə işi yerinə yetirir və sonra uşaqlara işə başlamağı təklif edir.)* Həkim papağının üstündə nə işarəsi olur? *(Uşaqların cavabları)* Müəllim quraşdırma qaydasını göstərir.

—İdman dəqiqəsi—

**Tətbiqetmə. M:** "Uşaqlar, bu tapşırıqda tamamlanmamış qıfıllar təsvir olunub. Siz indi qıfılları tamamlayın və rəngləyin".

Məşğələ uşaqlarla birlikdə ümumiləşdirilir və yekunlaşdırılır.

**Problemin aktuallığı.** Azərbaycan Respublikasında aparılan təhsil islahatlarında məktəbəqədər təhsil fasiləsiz təhsil sisteminin ilk pilləsi hesab edilmişdir. Uşaqların əqli, fiziki, yaradıcı potensialının və mədəni səviyyəsinin inkişafı, sadə əmək vərdişlərinə yiyələnməsi, şəxsiyyət kimi formalaşdırılmasının bünövrəsi məktəbəqədər təhsil müəssisələrində qoyulmuşdur.

**Problemin elmi yeniliyi.** Məktəbə hazırlıq işində müəllim, uşaqların şəxsi keyfiyyətlərini aşkara çıxarmağı və onların potensial imkanlarını inkişaf etdirməlidir. Müəllim uşaqların fiziki və əqli qabiliyyətinin inkişafı, şəxsiyyətyönlü hazırlığı, təşəbbüskarlığı, özünü qiymətləndirmə bacarıqlarının formalaşdırılmasında əsas simadır .

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, irəli sürülən ideya və təkliflərdən məktəbəqədər təhsil işçiləri, pedaqoq-müəllimlər və məktəbəqədər tərbiyə sahəsində təhsil alan bakalavrlar bəhrələnə bilərlər.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 12 aprel tarixli 2089 №-li sərəncamı.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu.- Bakı, 2009.
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 oktyabr 2016-cı il , 404 №-li qərarı.
4. Məktəbəqədər Təhsil Proqramı (kurikulum). -Bakı, 2022.

**E-mail:** fairudin1951@mail.ru

**Redaksiyaya daxil olub:** 29.05.2024